**Azərbaycan.** - 2024.- 8 avqust. - № 167. - S. 6.

# "Yaşıl dövr"ün "yaşıl avtomobil"ləri...

***Bu avtomobillərin sayı COP29 konfransına qədər artacaq***

**Züleyxa Əliyeva**

Əslində ətraf mühitin çirklənməsində nəqliyyat sektorunun payı digər təsərrüfat sahələri ilə müqayisədə daha böyükdür. Bunun əsas səbəbi istər Azərbaycanda, istərsə də dünyanın başqa ölkələrində hələ də benzin və dizel yanacağından istifadə edilməsidir. Məlumdur ki, bu yanacaq növləri ilə hərəkətə gələn, daxiliyanma mühərrikinə sahib olan avtomobillərin sayı ölkəmizdə çoxluq təşkil edir.

Mütəxəssislərin qənaətinə görə, havanın çirklənməsində avtomobil nəqliyyatının payı 80 faizdir. Atmosferin antropogen yolla çirkləndirilməsi şübhəsiz ki, nəqliyyat vasitələrinin sayının artması ilə əlaqədardır. Bildiyimiz kimi, nəqliyyatın müxtəlif növlərinin fəaliyyəti nəticəsində hər gün atmosferə külli miqdarda zəhərli qazlar atılır. Bu, ətraf mühitə yüksək texnogen təsir göstərir və insanların sağlamlığı üçün ciddi təhlükə yaradır. Nə yaxşı ki, son illər elektrik və hibrid mühərrikli avtomobillərə maraq xeyli artıb. Bu da onunla əlaqədardır ki, indi avtomobil istehsalçıları bu cür avtomobillərə üstünlük verirlər. Nəticədə elektromobil avtomobillər iqlim dəyişmələrinin fəsadlarını aradan qaldırmaqda rol oynayan əsas faktor kimi diqqətləri özünə çəkir.

Dünya sürətlə benzin və dizel yanacağı ilə istehsal olunan avtomobildən imtina edir. Bu tendensiya Azərbaycandan da yan keçmir. Hibrid və elektromobil avtomobillərə keçid günün və zamanın tələbi olduğu üçün ölkəmizdə də vüsət alıb. Artıq insanlar bu cür avtomobil idarə etməyə üstünlük verirlər. Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, bu ilin yanvar-iyun aylarında Azərbaycana idxal olunan hibrid mühərrikli minik avtomobillərinin sayı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 22,3 faiz, onların dəyəri isə 66,8 faiz artıb. Qeyd edək ki, hökumət artıq bu cür "yaşıl avtomobil"lərin Azərbaycana idxalında güzəştlər tətbiq etməyə başlayıb. Elektromobil bazarı üzrə ixtisaslaşan ekspertlərin rəyinə görə, 2025-ci ildən sonra tam yeni batareya ilə işləyən elektrik avtomobillərinin istehsalına start veriləcək. Həmin nəqliyyat vasitələri tutumunun çox, çəkisinin isə az olması ilə seçilir. 2027-ci ilə qədər isə elektrik avtomillərinin qiymətinin eyni xarakteristikalı daxiliyanma mühərrikli avtomobillərlə bərabərləşəcəyi gözlənilir. Bu da onu deməyə əsas verir ki, 2030-cu ilədək dünyada satılan hər iki avtomobildən biri elektrikli olacaq. Beynəlxalq Enerji Agentliyi də daxiliyanma mühərriklərindən elektromobillərə keçidin 2030-cu ilə qədər qlobal neft tələbinin gündə, ən azı 5 milyon barel azaldacağını proqnozlaşdırır.

Elə buradaca bir maraqlı faktı diqqətə çatdırmağı məqsəduyğun sayırıq. Hazırda dünyanın avtomobil yollarında elektriklə işləyən nəqliyyat vasitələrinin yarıdan çoxu Çində idarə olunur. Bu ölkədə satılan hər 100 avtomobildən 15-ni elektromobillər təşkil edir. Qlobal akkumulyator istehsalında xüsusi üstünlüyə malik Çin, həm də 2022-ci ildə dünya üzrə elektromobillərin satışında 60 faiz pay sahibi olub. Bu gün Çin "yaşıl avtomobil" istehsalı, satışı və ixracına görə liderdir. Son məlumatlara görə, Çində 440 milyon ədəd motorlu nəqliyyat vasitəsi istifadə olunur ki, onun 345 milyonu avtomobildir. "Yaşıl avtomobil"lərin sayı isə 25 milyona yaxındır. Ölkənin 96 şəhərində 1 milyondan çox "yaşıl avtomobil" var. Çendu, Pekin və Çonçin şəhərlərində isə bunların sayı 6 milyonu ötüb.

Azərbaycan ərazisinə və əhalisinə görə Çindən çox kiçikdir. Amma ölkəmiz bu məsələdə heç də Çindən geri qalmır, qapılarını öz "həcm"inə görə "yaşıl avtomobil"lərə açır. Bu məsələ ilə bağlı əlaqədar qurumlar və şəxslər tərəfindən vaxtaşırı tədbirlər təşkil olunur, seminarlar keçirilir, iştirakçılara geniş bilgi verilir. "Yaşıl avtomobil" nəqliyyatının infrastrukturu və onun idarə edilməsi ilə bağlı xarici ölkələrin təcrübəsi, müvafiq qanunvericilik aktları və standartları, eyni zamanda Avropanın müxtəlif təşkilatları və dövlət orqanları tərəfindən qəbul edilən "yaşıl nəqliyyat" siyasəti və digər məsələlər müzakirə olunur. Yeri gəlmişkən, bir müddət əvvəl İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Çinin "Jiubai Import & Export" şirkəti arasında Azərbaycanda "yaşıl enerji" və elektrik avtomobillərinin istehsalı haqqında müzakirə aparılıb. Bu barədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov məlumat verib. Agentlik sədrinin sözlərinə görə, ətraf mühitin qorunmasının vacibliyi baxımından sözügedən sahələrə investisiyaların cəlb olunması prioritet məsələlərdəndir.

"Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nda da elektrik nəqliyyatına geniş yer verilməsi yuxarıda qeyd olunanları bir daha təsdiq edir. Baş plana əsasən, paytaxtda elektriklə işləyən avtomobillərin sayəsində atmosferin zəhərlənməsi qismən azalmış olacaq. Bir müddət əvvəl Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev jurnalistlərə açıqlama verərək dedi ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29)

qədər Bakıya 160 yeni elektrikli avtobus gətiriləcək. Şəhərarası marşrut xidməti göstərəcək həmin avtobusların rəngi də yaşıl olacaq. Şübhəsiz, həmin "yaşıl nəqliyyat" COP29-un keçirildiyi günlərdə təkcə bakılıların deyil, paytaxtımıza gələn xarici qonaqların da xidmətində dayanacaq.

Bu reallığa söykənərək demək olar ki, ölkəmiz qısa müddətdə həm hibrid, həm də elektromobil istehsalçısına da çevrilə bilər. Azərbaycanın iqtisadi gücü ekoloji təmiz, "yaşıl dövr"ün "yaşıl avtomobil"lərinin istehsalına imkan verir. Ekspertlər bunu tam real hesab edirlər. Artıq elektrikli avtomobillər üçün şarj cihazları istehsal edilməsi üçün hazırlıqlar gedir. Bu işi Ağdam Sənaye Parkının rezidenti olan "Eel Electric" MMC yerinə yetirir. Elektrik paylayıcı avadanlıqların və elektrik yuvalarının istehsalı üzrə müəssisədə görülən işlərin artıq 85 faizi yekunlaşıb.

Gözlənilən günə az qalıb: həm COP29 konfransına, həm də "yaşıl dövr"ün "yaşıl avtobus"larının Bakı küçələrində hərəkətinə...